# TƏQVİMDƏN SƏTİRLƏR

**13 avqust:** 1961-ci ildə Berlin şəhərini iki hissəyə bölən divar tikilmişdir. Lakin sovetlər dövlətinin süqutundan sonra həmin divar sökulmüş və vahid alman dövləti yaranmışdır.

**14 avqust:** Ədəbi tənqidçi, əməkdar elm xadimi, filologiya elmləri doktoru **Kamal Talıbzadə** (1923-cü il) anadan olmuşdur. Abdulla Şaiqin oğludur. Nizami adına Ədəbiyyat və Dil İnstitutunda işləmişdir. Ədəbi tənqid məsələlərinə aid monoqrafiyalar yazıb.

Görkəmli xanəndə **Alim Qasımov** 1957-ci ildə anadan olub. Dünyanın müxtəlif ölkələrində konsert verir, muğamlarımızı, xalq musiqimizi təbliğ edir. 1999-cu ildə İMS UNESCO-nun mükafatını almışdır. ABŞ-da, İngiltərədə, Almaniyada, Belçikada, Brazilyada, Honq Konqda, Yaponiyada və bir sıra ölkələrdə çıxış etmişdir.

**15 avqust:** Hərbi xadim, kontr-admiral **Cəlil Cavadov** (1916—1980) anadan olmuşdur. 1937-ci ildə hərbi xidmətə başlamışdır. Böyük Vətən müharibəsində iştirak edib, müharibədən sonra Xəzər Hərbi Donanmasında xidmət etmişdir.

İngilis yazıçısı **Valter Skott** (1771—1832) anadan olmuşdur. İxtisası hüquqşünas idi. 30-dan çox roman yazıb, imzasını gizli saxlayıb, yalnız 1829-cu ildə əsərlərinin tam külliyyatı nəşr olunanda tam imza yazmağa icazə verib.

**16 avqust:** Xalq şairi, dramaturq, filologiya elmləri doktoru **Bəxtiyar Vahabzadə** (1925—2009) Şəkidə anadan olub. Yaradıcılığı zəngin və çoxsahəlidir. Şeirlər, poemalar, dramlar, elmi-tədqiqat əsərləri yazıb. BDU-da dərs deyib, Milli Məclisin üzvü olub.

Görkəmli yazıçı, ictimai xadim **Şıxəli Qurbanov** (1925—1967) anadan olmuşdur.

Məşhur tarzən, xalq artisti **Əhsən Dadaşov** (1924—1976) anadan olmuşdur.

**17 avqust:** Məşhur opera müğənnisi, bəstəkar, SSRİ xalq artisti **Müslüm Maqomayev** (nəvə, 1942—2008) anadan olmuşdur. Yaradıcılığının ən məhsuldar və şöhrətli illərini Moskvada yaşamışdır. Ömrünün sonuna yaxın yazdığı "Əlvida Bakı" mahnısı kövrək notlarla səslənir.

Şahmat üzrə üç dəfə dünya çempionu olmuş **Mixail Botvinnik** (1911—1995) dünyaya gəlmişdir.

**18 avqust:** Vahid monqol dövlətinin banisi, sərkərdə **Çingiz xan** 1227-ci ildə vəfat etmişdir.

**19 avqust:** Ədəbiyyatşünas, Azərbaycan Dövlət mükafatı laureatı, tənqidçi, akademik **Bəkir Nəbiyev** 1930-cu ildə anadan olmuşdur. EA-nın Nizami adına Ədəbiyyat İnstitutunda şöbə müdiri, Ədəbiyyat muzeyinin direktoru, EA-nın akademik katibi işləmişdir.

Şairə, əməkdar mədəniyyət işçisi **Mirvarid Dilbazi** (1912—2001) dünyaya gəlmişdir. Çoxlu şeirləri, poemaları, rus ədəbiyyatından tərcümələri var. İlk şeiri 1927-ci ildə, ilk kitabı 1934-cü ildə nəşr olunub.

Xalq artisti, aktyor, rejissor, teatr xadimi **İsmayıl Hidayətzadə** (1901—1951) Bakıda anadan olmuşdur. Akademik Dram Teatrında aktyor, rejissor işləmiş, kinoda çəkilmişdir.

# «Qəbələ» heç-heçə ilə başladı

Avqustun 10-da Topaz Premyer Liqasında ilk tura yekun vurulub. "Qəbələ" güclülər dəstəsində onun üçün yubiley–10-cu mövsümə öz meydanında "Qarabağ"la oyunla başlayıb. "Qarabağ" 83-cü dəqiqədə hesabda irəli çıxa bildi. Almeyda dəqiq zərbəylə dublunu rəsmiləşdirdi. Ancaq komandamız əzmkarlıq nümayiş etdirərək, hesabı bərabərləşdirə bildi. 86-cı dəqiqədə hücuma qoşulan Ürfanın sol cinahdan ötürməsindən sonra "Qarabağ"ın kapitanı Rəşad Sadıqovun səhvi topun Samirə düşməsiylə nəticələndi. Zərgərov dəqiq zərbəylə penalti epizodundakı səhvini düzəltdi və komandamızın mövsümə xalla başlamasına imkan yaratdı. Ukraynalı qapıçımız Dmitri Bezotosnının son dəqiqələrdə İlqar Qurbanovla Reynaldonun zərbələri zamanı inamlı oyun nümayiş etdirməsi də yaddaqalan oldu. Bununla da "Qəbələ" yeni mövsümə son 2 mövsümün çempionuyla matçda əzmkar heç-heçəylə başladı.

# ELANLAR

Qəbələ şəhəri İ. Qutqaşınlı küçəsində 25 №-li binanın 32 №-li mənzilində yaşayan Hacıyev Adil Abid oğlunun adına verilmiş **evinin orderi itdiyi üçün** etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən Aydınov Nəriman Haqverdi oğlunun adına verilmiş JN 607 F nömrəli (kodu 40600068) **Torpağın mülkiyyətə verilməsinə dair şahadətnamə itdiyi üçün** etibarsız sayılır.

Qəbələ rayon Aqrar İslahat Komissiyası tərəfindən Aydınov Anar Nəriman oğlunun adına verilmiş 607 nömrəli **Torpağa mülkiyyət hüququna dair Dövlət aktı itdiyi üçün** etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən JN-85F nömrəli (kodu 40604038) Mamaylı kənd sakini Umarov Cəfər Xıdır oğlunun adına verilmmiş Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə və JN-85 nömrəli (kodu 40604038) **Torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün** etibarsız sayılır.

# Fövqəladə Hallar Nazirliyinin əhaliyə müraciəti

Son günlər respublika ərazisində havanın isti və quraq keçməsi nəticəsində biçilmiş taxıl, otlaq, kol-kos sahələrində, habelə, meşə massivlərində müxtəlif miqyaslı yanğınlar baş verir. Lakin aparılan araşdırmalar bu yanğınların baş verməsində insanların ehtiyatsızlığının əsas səbəblərdən biri olduğunu üzə çıxarmışdır.

Yuxarıda qeyd olunanları, həmçinin, yanğınların milli sərvətimiz olan meşələrimizə, flora və faunaya törətdiyi təhlükəni, dövlət büdcəsinə vurduğu ziyanı, ən əsası isə insan həyatına yaratdığı riski nəzərə alaraq, Fövqəladə Hallar Nazirliyi təbiətdə istirahət edən insanlardan odla ehtiyatlı davranmağı, tam söndürülməmiş kibrit dənəsini, siqaret kötüyünü, benzin və başqa yanar mayelərin hopduğu parça və digər materialları ətrafa atmamağı, nəzərdə tutulmamış ərazidə və lazımi təhlükəsizlik tədbirləri görülmədən ocaq qalamamağı, uşaqları nəzarətsiz qoymamağı, kənd təsərrüfatı texnikası ilə işləyən vətəndaşlardan isə yanğın təhlükəsizliyi qaydalarına ciddi riayət etməyi xahiş edir.

Yanğın baş verdikdə və ya hər hansı yanğın təhlükəsi hiss etdikdə nazirliyin **"112" qaynar xəttinə zəng vurmağınız** xahiş olunur.

# Görkəmli şəxsiyyətlərin həyatından

Müsəlman dünyasının məşhur həkimi Abu Bəkir Məhəmməd bəy Zəkəriyyə (Zəkəriyyə Razi, 865-925-ci il) xəlifənin qəzəbinə düçar olmuşdur. Xəlifə qamçı ilə onun başına vuraraq kar etmişdir.

* * *

Alman bəstəkarı İohan Sebastyan Bax (1685--1750) dilənçi kökündə ölmüşdür.

* * *

XII əsrin görkəmli şairlərindən və alimlərindən biri olan Fələki Şirvani Şahın qəzəbinə düçar olmuş və həbsxanada ölmüşdür.

* * *

Böyük mexanik və riyaziyyatçı, statika və hidrostatika elminin banisi Arximed (b.e.ə. 287-212) ellinizm dövründə yaşamış, mühəndis olmuş, bir çox mexaniki cihazlar ixtira etmişdir.

* * *

Həbs məqsədilə Roma əsgərləri Arximedin evinə daxil olurlar(212-ci il). Arximed bu zaman işləyirdi, ona görə də əsgərlərdən xahiş edir ki, bir qədər möhlət versinlər, fikrini tamamlasın. Ancaq əsgərlər onun əşyalarını dağıdırlar. Arximed isə «Mənim çertyojlarıma toxunmayın» deyərək onların üçtünə qışqırır. Əsgərlər bundan özlərini «təhqir olunmuş» hesab edirlər və Arximedin boynunu vururlar. Onun qanı stol üstündəki əsərlərin üstünə axır.

Maykl Faradey (1791--1867) 13 yaşında əmək fəaliyyətinə başlayır. O, kitab ticarətində cildçi işləmişdir. Alim orta təhsil almış, fizika və kimya ilə maraqlanmışdır. Bir dəfə Faradey fizik Devidən xahiş dir ki, yanında elmi işlə məşğul olmaq üçün ona icazə versin. Devi əvvəlcə Faradeyin ali təhsili olmadığından onun xahişini yerinə yetirmir. Az sonra isə istedadını görüb, sərbəsit elmi iş aparmağa icazə verir. Faradey elektrik və maqnetizim məsələləri ilə məşğul olur, 1831-ci ildə elektromaqnit induksiya hadisəsini kəşf edir.

* * *

Volter öz şeirlərini yuxuda qoşardı, oyananda isə onları dəyişdirmədən kağıza köçürərdi. Bəstəkar Tertini isə öz sonatalarını yuxuda qoşardı, sonra isə nota salardı. D. İ. Mendeleyev özünün kimyəvi elementlərin dövrü sistemi cədvəlini, A. Kekule benzol formulunu, J. Adamar riyaziyyat üzrə bir kəşfini yuxuda düzəltmişdir.

A. S. Tuşnin də bəzi şeirlərini yuxuda yazmışdır. A. S. Qribayedov «Ağıldan bəla» əsərinin planını yuxuda qurmuşdur.

**Toplayanı:**
**Məleykə ŞİRİNZADƏ,**
**Qəbələ şəhər 3 saylı tam orta məktəbin şagirdi.**

## ALLAH RƏHMƏT ELƏSİN

«Qəbələ» qəzetinin kollektivi iş yoldaşları **Aslan Cəlilova,** qaynanası **AŞAXANIM SƏFƏRƏLİYEVANIN** vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

Məsul katib
N. R. Atakişiyev.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
Məsul növbətçi:
Q. C. Səmədov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2300.
Oxucu məktubları geri qaytarılmır.